*Y.Rəhnulla. Zikr və duada Allahın gözəl adları (Azərbaycan əlyazmaları əsasında) // Əlyazmalar yanmır, 2022, № 1 (14), s.204-210.*

UOT: 297; 18; 09.

**Yeganə Rəhnulla**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş. İstiqlaliyyət küç. 26*
*e-mail: yegane.rahnulla@mail.ru*

# ZİKR VƏ DUADA ALLAHIN GÖZƏL ADLARI (AZƏRBAYCAN ƏLYAZMALARI ƏSASINDA)

**Xülasə**

"Əsmaul-husna" Qurani-kərimin müxtəlif ayələrindən və hədislərdən götürülmüş Allaha məxsus 99 ən gözəl adı ifadə edən dini termindir. Dini ədəbiyyatda "Əsmaul-husna"ya daxil olan Allahın 99 adı ilə bağlı fərqli qeydlər var. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunda İslam aləminin məşhur alim və mütəfəkkirlərinin İlahiyyat elmlərinin müxtəlif sahələrinə aid yazılmış əsərlərinin əlyazma nüsxələri qorunub saxlanılır. Əlyazmalar İnstitutunda mühafizə olunan İlahiyyata aid olan əsərlər içərisində "Əsmaul-husna"- Allahın gözəl adlarından bəhs edən əlyazma nüsxələri xüsusi yer tutur.

***Açar sözlər:*** *İslam, Əsmaul-husna (Allahın gözəl adları), Azərbaycan əlyazmaları, zikr, dua*

**Giriş**

*Tanrıya inam, tanrı adları qədim dövrlərdən etibarən bütün dinlərdə mövcud olmuşdur. "Asur-Babil dinində çox tanrılıq sistemi tətbiq edilməklə bərabər Asuriyaların inancına görə kiçik tanrılar, uca tanrı Asurun fərqli adlar almış görünüşündən ibarətdir. Çin dinlərində Shangti adlı səmavi tanrı başda olmaqla göy və yer ruhlarının mövcudluğunu qəbul etməklə bu ruhlar tanrılaşdırılıb və çox tanrılıq sistemində dəyişiklik olmuşdur" [1, c. 2, s. 472]. Qədim Misir dövlətində də çox tanrılıq inancı olmuş və bu mifik varlıqları müxtəlif heyvan bədənləri ilə təsvir edərək adlar qoymuşdular. Onlardan "Aker - yerin tanrısı, Amon - əvvəl yerli tanrı idi, sonra bütün Misir ona tapındı, Amset - ikinci dərəcəli tanrı, Anubis - bütün Misirdə məşhur olan bu tanrının başı çaqqal, bədəni isə insan bədəni şəklində olmuşdur, Montu - savaş tanrısı, Nefertum - bitkilərin tanrısı, Osiris - ən tanınan Misir tanrısı, Ra - günəş tanrısı" [2] misal gətirmək olar.*

*Qədim Yunan mifologiyasında dünyanı idarə edən əsas 12 Olimp tanrısının və onların törəmələrinin adları aşağıdakılardır: "Zevs (Yupiter) - Göy və yer hadisələrinin tanrısı,*

*Paseydon (Neptun) - Dənizlər və zəlzələlər tanrısı, Hades (Pluton) - Yeraltının tanrısı, Hera (Luno) - evlilik tanrısı, Hermes (Merkuri) - Şəfa, yolçuluq tanrısı, Dionisos-Şərab, əyləncə tanrısı, Hephaystos (Vulkanos) - Atəş, od və dəmirin tanrısı, Apallon (Apollo) – Günəş, musiqi, tanrısı, Artemis (Diana) - ovçuluq tanrısı, Ares (Mars) - Müharibə tanrısı, Afina (Minerva) - Zəka, elm tanrısı, Afrodit (Venus) - Eşq, sevgi və gözəllik tanrısıdır" [3].*

*Səmavi din olan Yəhudilik və Xristianlıqda da Tövrat və İncildə qeyd olunmuş Tanrının müxtəlif mənalar kəsb edən adları mövcuddur: "El, Elqah - güclü, qüvvətli, öndə olan, Elonim - xəlq edən, El Şadday - güclü tanrı, Adonay - Yəhudilərin YHVH yerinə işlətdikləri Rəb mənasına gəlir, YHVH, Yahve, Yenova - Rəb, Tanrı üçün istifadə edilən yeganə xüsusi ad, Yahve Yire - Tanrı sağlayandır, Yahve Rafa - Tanrı şəfa verəndir, El Elyon - ən uca olan, El-Gibhor - ən güclü olan mənasındadır" [4]. İslam dinində isə Allahın Quranda və hədislərdə bəyan olunan yüzlərlə adı var, onlardan doxsan doqquz seçilmiş ad, Əsmaul-husna ifadəsi altında cəmlənmişdir. Bütün səmavi dinlərdə olduğu kimi İslam dinində də Allahın ad və sifətləri Quran ayələri və hədislərə əsaslanaraq geniş tədqiq olunur. Allahın bu atributları Əsmaul-husna dini termini kimi İlahiyyatın müxtəlif sahələrinin, o cümlədən dua və zikrlərin ana xəttidir.*

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan əlyazma nüsxələrinin və əski çap kitablarının mövzusu başlıca olaraq İslam dininin müxtəlif məsələlərini əhatə edir. Buna səbəb, Orta əsrlərdə İslamın dövlət dini olaraq geniş vüsət almasıdır. Sovet dövründə bu əsərlər tədqiq olunmamış, araşdırılan əsərlər isə dini baxımdan deyil, mətnşünaslıq mövqeyindən tədqiqata cəlb olunmuşdur. Müstəqillik əldə olunandan sonra dini mövzuların tədqiqinə icazə verilməsi, bu sahənin də Azərbaycanda inkişafına təkan verdi. Azərbaycan əlyazmalarında İslam dininin hüquq, təfsir, təcvid kimi elm sahələri ilə yanaşı kəlam elminin bölməsi olan Allahın ad və sifətləri haqqında əsərlər də qorunmaqdadır. Ərəbdilli, farsdilli və türkdilli olmaqla 30-dan artıq əlyazma nüsxələri üzərində tədqiqat aparılıb. Burada Allahın adı ilə edilən dua, zikr və sehrdən bəhs edən əsərlər yer alır. Həmçinin bəzi əsərlərdə Allahın adları ilə dua və zikr etmək qaydaları da göstərilmişdir. Bunlar həm müəllifi məlum olan iri həcmli əsərlərdir, həm də müəllifi məlum olmayan kiçik həcmli əsərlərdir. Islam dinində dua- bəndənin bütün varlığı ilə Yaradana üz tutaraq ondan istək və arzularının həyata keçməsini diləmək mənasını verən dini termin və bu məqsədlə yerinə yetirilən bir ibadət növüdür. "Dua" sözü lüğətdə "çağırmaq səslənmək, istəmək, kömək istəmək" mənasında "dəvət" və "dəva" sözləri kimi məsdər olub, "tələb və niyaz" mənasında isə isim kimi istifadə olunur. Bundan əlavə, Allaha təqdim olunan yazılı və şifahi şəkildə istəkləri ifadə edən mətnlərə də dua deyilir. İslam ədəbiyyatında isə Allahın əzəməti qarşısında bəndənin acizliyini etiraf etməsini, sevgi və təzim hisləri içində lütf və köməyini istəməsini ifadə edir [5, c. 9, s. 529]. Qurani-kərimdə 20 yerdə dua kəlməsi ilə birlikdə bəzi ayələrdə "dəva" və "dəvət" sözləri də eyni mənada işlənmişdir. İbn Mənzur dua etmənin üç növünü belə bölmüşdür: 1.Allahın birliyini dilə gətirmə və Onu vəsf etməklə xatırlamaq. 2. Allahdan əfv, bağışlamaq kimi mənəvi istəkləri ifadə etmək. 3.Allahdan dünyəvi nemətləri istəmək [6, c. 9, s. 530]. *"Bəndə, Allahın ad və sifətləri ilə dualar edər və Rəbbini arzu edər. Məsələn, xəstə biri Allah desə, istəyi Şafidir, Günahkar biri Allah desə, istəyi Təvvabdır, hər*

*kim Allah desə, istəyi nədirsə, o olur. Biri qəlbdən Allaha dönərsə, bütün bəndələrin qəlbini qazanır, Allah bütün bəndələrə onu sevdirir"* [7, s. 12].

*"Şəms əl-maarif va at-tarif əl-avarif"* (D-933**).** Əbül Abbas Əhməd ibn Əli ibn Yusif əl-Qureyşi əl-Buninin *"Şəms əl-maarif va at-tarif əl-avarif"* əsərinin əlyazması və üç əski çap kitabı Əlyazmalar İnstitutunda qorunmaqdadır. Müəllif haqqında geniş məlumat olmasa da, onun Əlcəzairin Konstantin vilayətinin Bunə qəsəbəsində anadan olması və h.622/ m.1225-ci ildə Qahirədə vəfat edib, Qazəfə qəbiristanlığında dəfn edildiyi mənbələrdə qeyd olunub. Buni "qeyb elmləri" adı ilə tanınan sehr və tilsim mövzularından bəhs edən 40-dan çox əsərin müəllifidir. Onlardan *"Lətaifu-işarat fi əsrarul-hurufil-ulviyyat"* əsəri *"Şəms əl-maarif va at-tarif əl-avarif"* ilə eyni mövzudan bəhs edir. *"Ən-ənmat" adı ilə tanınan "əl-Lumaatun-naraniyyə"* əsərinin mövzusu isə əsmaul-husna və mələklərdir. Bunlardan əlavə, Allahın ən böyük adından və bəsmələnin hikmətindən bəhs edən *"İsmilillahi-azim"* və *"Risalə əs-sirri-kərim fi fəzaili bismillahir-rahmənir-rahim"* kimi əsərləri də günümüzə gəlib çatmışdır [8, c. 6, s. 416-417]. Onun qələmə aldığı *"Şəms əl-maarif va at-tarif əl-avarif"* adlı əsəri 40 fəsildən ibarət olub ayələrdəki Allah adlarının xüsusiyyətlərindən, tilsimin mahiyyətindən və bu mövzulara aid olan müxtəlif məsələlərdən bəhs edir [9, v. 85b].

Əsər Şərq istehsalı olan sarımtıl rəngli kağıza qəhvəyi rəngli mürəkkəblə nəsx xətti ilə köçürülüb. Əlyazmanın 2-ci vərəqi isə, Rusiya istehsalı olan və «П», «Н», «Ф» hərfləri basılmış su nişanlıdır. Risalədə Allahın, fəsillərin adları və bəzi sözlər qırmızı mürəkkəblə yazılıb. Əsərin bir çox səhifələrində tilsimə aid olan müxtəlif cədvəllər verilib. Bu cədvəllərin içində rəqəmlər, hərflər, Allahın adları və bir çox sözlər qəhvəyi və qırmızı rəngli mürəkkəblə yazılıb. Mətnin haşiyələrində əsərə aid olan qeyd və izahlar var. Şərq üsulu ilə səhifələnən əlyazmanın cildi naqisdir. Üst cildi yoxdur, alt cildi və özəyi kartona keçirilmiş tünd qəhvəyi rəngli dəridir. Ümumu həcmi 176 vərəq, ölçüsü isə 21,5x32,5 sm-dir.

Buninin III-391/1266 şifrəsində saxlanılan əsəri Misirdə h.1318/m.1900-ci ildə nəşr olunmuşdur, 494 səhifədir. XVI-1288/5506 şifrəsindəki İkinci nüsxəsi də eyni ildə Misirdə çap olunmuşdur və 487 səhifədir. Üçüncü nüsxə isə 1902-ci ildə Misirdə "Hindiyyə" mətbəəsində basılmışdır və 512 səhifədən ibarət olaraq III-175/1090 şifrəsi altında qorunmaqdadır.

*"Həzihi əl-əsmaul-azim"* (B-4748). Müəllifi məlum olmayan bu əsər bir vərəqdən ibarətdir [10, v. 54a-54b]. Əsərdə Allahın adlarını sadalamaqla dua etmək qeyd olunub. Bu əsərin daxil olduğu əlyazma məcmuəsinə bu mövzuda daha iki əsər də daxildir. Onlar növbəti iki əsərdir. Əsər məcmuənin 54a-54b vərəqlərini əhatə edir. Dua Avropa istehsalı olan qalın kağıza qara mürəkkəblə hərəkəli nəsx xətti ilə köçürülüb. Bəzi sözlər və ifadələr qırmızı və sarı rəngli mürəkkəblə rənglənmişdir. Əsərin adı qırmızı rəngli mürəkkəblə nisbətən iri xətlə yazılıb. Əlyazma Şərq üsulu ilə səhifələnib. Cildi – üst cildi yoxdur, alt cildi və özəyi kartona keçirilmiş qəhvəyi rəngli dəridir. Həcmi 146 vərəq, ölçüsü 18x21,5 sm-dir. Onu da qeyd etmək lazımdır ki, B-4748 şifirli əlyazma məcmuəsinə Allahın gözəl adlarından bəhs edən dörd əsər daxildir.

*"Tilavatu əsmaul-iləhi"* (B-4748). Bu əsərin də müəllifi məlum deyil. Burada Allahın adlarına xitab olunaraq dua edilir. Əlyazma Allahın adları ilə Allaha dua etməkdən bəhs edir. Məcmuənin 60a-62a vərəqlərini əhatə edən əsər Avropa istehsalı olan qalın kağıza qara mürəkkəblə hərəkəli nəsx xətti ilə köçürülüb. Mətnin haşiyəsində və sətirlərin arasında

nisbətən kiçik şriftlə yazılmış qeyd və izahlar var. Bəzi sözlər və ifadələr qırmızı və sarı rəngli mürəkkəblə rənglənmişdir.

*"Dua əl-əsmaul-husna"* (B-4748). Müəllifi məlum olmayan bu əsərdə Allahın hər bir adından sonra ona uyğun dua edilir [11, v. 77a-78a]. Burada Allah adı ilə başlayan Sabur adı ilə bitən Allahın ən gözəl 99 adı qeyd olunub. Dua Avropa istehsalı olan qalın kağıza qara mürəkkəblə nəsx xətti ilə köçürülüb. Dua məcmuənin 77a-78a vərəqlərini əhatə edir. Mətndə Allahın hər adının üzərindən qırmızı mürəkkəblə xətt çəkilib və yaşıl mürəkkəblə bəzədilib. Bəsmələ qırmızı mürəkkəblə nisbətən iri nəstəliq xətti ilə yazılıb.

Ərəbdilli əlyazmalar içərisində *"Duayi əsmallah əst"* əsərinin üç nüsxəsi tədqiqata cəlb edilmişdir. Onların elmi-paleoqrafik təsviri aşağıda qeyd olunmuşdur.

B-2816 şifirli əlyazma məcmuəsinin 73a-76b vərəqlərini əhatə edən əsərin adı fars dilində olmasına baxmayaraq ərəb dilində yazılmışdır. Dua Rusiya istehsalı olan qalın, sarımtıl rəngli filiqranlı kağıza qara mürəkkəblə nəstəliq xətti ilə köçürülüb. Vərəqlərin özəyinə tərəf olan hissələrdə kiril əlifbasının "м", "ф" hərfləri və s. filiqranlar qeyd olunmuşdur. Allah adlarının üzərindən qırmızı rəngli mürəkkəblə xətt çəkilib. Mətnin haşiyələrində müxtəlif istiqamətlərə qara mürəkkəblə nisbətən kiçik şriftlə yazılmış qeydlər var. Əsər Şərq üsulu ilə səhifələnib. Duanın sonunda müəllif, katib və köçürülmə tarixi haqqında heç bir məlumat qeyd olunmayıb. Cildi-qəhvəyi rəngli dəridir. Üzərində basma çərçivənin içərisində xətlər var. Həcmi 112 vərəq, ölçüsü 17,5x21 sm-dir.

*"Duayi əsmallah əst"* əsərinin ikinci nüsxəsi B-3940 şifirli əlyazma toplusunun 3a-6b vərəqlərini əhatə edir. Əsər Şərq istehsalı olan qalın sarımtıl rəngli kağıza qara mürəkkəblə şikəstə xətti ilə köçürülüb. Duada Allahın adlarının və bəzi sözlərin üzərindən qırmızı və qara rəngli mürəkkəblə xətt çəkilib. Mətnin haşiyələrində qeyd və izahlar var. Əlyazma Şərq üsulu ilə səhifələnib. Əlyazmanın cildi yoxdur, həcmi 7 vərəq və ölçüsü 18,5x23,5 sm-dir.

B-7768 şifirli əlyazma nüsxəsində əsər məcmuənin 89b-91b vərəqlərini əhatə edir. Mətn Avropa istehsalı olan sarımtıl rəngli kağıza qara mürəkkəblə nəsx xətti ilə köçürülüb. Allah adlarının yazılmasında qırmızı rəngli mürəkkəbdən istifadə olunub. Əlyazma Şərq üsulu ilə səhifələnib. Əlyazma tanınmış Azərbaycan katibi Əbdülqəni Nüxəvi Xalisəqarizadənin kitabxanasına məxsus olmuşdur. Cildi-kartona keçirilmiş qəhvəyi rəngli, özəyi isə tünd qəhvəyi rəngli dəridir. Üzəri 8 balaca və 1 basma medalyonla bəzədilib. Özəyinə məcmuəyə daxil olan əsərlərin adı yazılmış kağız yapışdırılıb. Katib Əbdülqəni Nuxəvi ibn Hacı Məhəmməd Əfəndi Xalisəqarizadə tərəfindən h. Rabiul əvvəl 1250/m. İyul 1834-cü ildə köçürülmüşdür. Həcmi 231 vərəq, ölçüsü 17,5x21 sm-dir.

Əlyazmalar İnstitutunda mühafizə olunan müxtəlif katiblər tərəfindən köçürülən bu əlyazma nüsxələrini müqayisə etdikdə onların arasında cüzi fərq olunduğu müəyyən edilmişdir. Onlardan Əbdülqəni Nüxəvi tərəfindən köçürülən B-7768 şifirli əlyazma nüsxəsində "onu oxu" -"قرأه", o biri nüsxələrdə isə "oxu" -"قرأ" kimi yazılmışdır və yaxud B-2816 şifirli əlyazma nüsxəsində ər-Rəhman adının zikr etmə qaydaları haqqında cümlə yarımçıq qalaraq ər-Rəhim adı yazılmadan bu adın zikr qaydaları köçürülmüşdür və s. bu kimi fərqləri qeyd etmək olar.

Qeyd olunduğu kimi bu əsər Allahın gözəl adları ilə dua etmək qaydalarından bəhs edir. Məsələn: "*Allahın əl-Quddus adını gün ərzində min dəfə zikr etmək qəlbi saflaşdırır; Əl-Mumin adını kim oxusa və ya əzbərləsə Allah onu şeytandan hifz edər; Hər kim əl-Əziz*

*adını sübh namazından sonra 41 dəfə oxusa Allah onu insanlar arasında zəngin edər"* [12, s. 155-157].

Adı və müəllifi məlum olmayan əsər (A-573). Bu əsərdə Allah adından başqa Əsmaul-husnaya daxil olan adlar iki-iki yazılaraq qısa izahı verilib. İzahdan sonra hər bir ada uyğun dua etmək qaydası verilmişdir. Allah adı isə İlahi və Rəbb adları ilə birlikdə işlənmişdir. Bu adların qısa izahından sonra zikr etmək qaydası belə verilmişdir: *"Gecə iki rikət namazdan sonra bir saat ərzində "ya Allah", "ya İlahi", "ya Rəbb" deyilir qəlbin bəsirətini açır, nurlu, əzəmətli edir və onun dünya və axirət işlərindən duaları qəbul olur"* [13, v. 31b].

Əsər məcmuənin 31b-34a vərəqlərini əhatə edir. Dua Avropa istehsalı olan ahərli, nazik, sarımtıl kağıza qara mürəkkəblə nəstəliq elementli nəsx xətti ilə köçürülüb. Orta əsr mətnşünaslığında tətbiq olunan şərti işarələr qara mürəkkəblə yazılıb. Əlyazma şərq üsulu ilə səhifələnib. Cildi, sonradan bərpa olunmuş göy rəngli dəri əvəzidir. Üzərinə bir böyük və iki balaca basma medalyon vurulub. Ümumi həcmi 192 vərəq, ölçüsü 12x18,5 sm-dir.

Əsər Allahın hər bir adına uyğun dua etməkdən bəhs edir. Müəllifi məlum olmayan bu əsərin Əlyazmalar İnstitutunda saxlanılan B-2816 və B-3940 şifirli əlyazma məcmuəsində adı yazılsa da B-7768 nüsxəsində əsərin adına rast gəlinmir. Lakin Kamandar Şəriflinin tərtib etdiyi "Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarizadə kitabxanasının kataloqu" adlı kitabda bu əsərin adı "Məani əsmə Allah" kimi qeyd olunmuşdur [14, s. 323].

Dua. Adı və müəllifi məlum deyil (A-828). Ərəbdilli əlyazmalar kataloqunun IV cildində bu əsərin adı *"Risalə fi əsma əl-husna"* kimi qeyd edilmişdir [15, s. 348]. Əlyazmanın əvvəlində Məhəmməd peyğəmbərə (s) salamdan sonra Allahın adları ilə dua başlayır. سبحانك لاإله إلاأنت[subhanəkə lə iləhə illə əntə] sözlərindən sonra Allahın adları iki-iki yazılıb məs: həyyul-qayyum, əl-bəsirul-sadiq, əl-həmidul-məcid və s. Əsərin sonu Fatihə sözü ilə bitir, lakin əlyazma şərq üsulu ilə səhifələndiyinə görə duanın naqis olması məlum olur.

Əsər Avropa istehsalı olan filiqranlı göyümtül rəngli kağıza qara mürəkkəblə səliqəli nəsx xətti ilə köçürülüb. Duanın düzgün oxunması üçün hərəkələnib. Əsər 65 vərəqlik məcmuənin 29a-33b vərəqlərini əhatə edir. Üst cildi kartona keçirilmiş qəhvəyi rəngli dəridir. Üzəri basma medalyonlarla bəzədilib. Alt cildi yoxdur. Özəyi parçadan ibarətdir. Şərq üsulu ilə səhifələnib və ölçüsü 11x16 sm-dir.

Dua. Adı və müəllifi məlum deyil (B-4630). Bu əsər də Allahın adları ilə olunan duadır. Bu istək duasında Allahın hər bir adına "يا" [ya] sözü ilə xitab olunmuşdur və bu adların mənalarına uyğun Allahdan arzuların həyata keçməsi istənmişdir. Bu duada niyyətin qəbul olması üçün Allahın hər bir adını 99 dəfə oxunması qeyd olunmuşdur [16, v. 45b; 139, c. 1, s. 403]. Risalə 48 vərəqlik məcmuənin 45a-47b vərəqlərini əhatə edir. Əlyazma Avropa istehsalı olan filiqranlı sarımtıl rəngli kağıza qara mürəkkəblə nəstəliq elementli nəsx xətti ilə köçürülüb. Duanın dəqiq oxunması üçün əvvəldən sona qədər hərəkələnmişdir. Mətndə bəzi hərflər qırmızı rəngli mürəkkəblə bəzədilmişdir. Cildsiz olan bu əlyazma Şərq üsulu ilə səhifələnib və ölçüsü 18x22 sm-dir [17, s. 221-225].

Türkdilli əlyazmalarda isə "*Fəsl fi əsmail-husna va ədədi hurufuha"* (B-4944) adı ilə mühafizə olunan kiçik həcmli əsərdir. İki vərəqdən ibarət olan bu əsər, duada Allahın 99 gözəl adını necə işlədilməsi qaydalarından bəhs edir. Əlyazmanın vərəqlərinin sonluğu olmadığı üçün mətn tam deyil və həmin hissələr sonradan ağ kağızlarla bərpa olunub. Əsərin əvvəli duanın istifadə etmək qaydalarından başlayır və bəsmələdən sonra Allahın adlarının

siyahısı verilib. Vərəqlərin sonu tam olmadığı üçün burada Allahın yalnız 95 adı oxunaqlı vəziyyətdədir. Allahın hər adının üzərində türk dilində duanın qəbul olunması üçün onu neçə dəfə oxumaq lazım olduğu qeyd olunub. Məs: *"Ya Rahmən" sözünün üzərində hərflərlə "ikiyüz doxsan səkkiz" sözləri yazılb"* [18, v. 104b]. Bu qeydlərin üzərindən qırmızı rəngli mürəkkəblə xətt çəkilib. Allahın adlarından sonra Əbcəd hesabının cədvəli verilmişdir. Ərəb əlifbası nisbətən iri xətlə qara mürəkkəblə, rəqəmlər isə kiçik xətlə qırmızı mürəkkəblə yazılıb.

Əsər Avropa istehsalı olan sarımtıl rəngli kağıza qara mürəkkəblə şikəstə xətti ilə köçürülüb. Əsərin əvvəli *"Fəsl fi əsmail-husna va ədədi hurufuha"* adlı Azərbaycan dilində ərəb qrafikası ilə yazılmış mətnlə başlayır və onun transliterasiyası belədir: "Bil ke əsmau husna haqq təalanın ulu adlarıdır. Necə kim həzrəti Mustafa ə.s. buyurmuşdur bedorsti (həqiqətən) hər kim haqq təalanın doqsan doqquz adını sayıb oqusa cənnətə girməklik ona vacib olar. Və bəədihi əsmau husnanın fəzaili çoxdur məsələn bir kişi hər gun minki kərə ya Allah ya hu desə Allah təala ol kişini əshab müqərrəbdən qıla baqisinin dəxi ali həzihi fəliləti vardır. Hələ məqsudə gələlim məsələn tələb mətlubunun ismini cəm edəsən əbcəd hesabı ilə hesab edəsən ke ədəd kaç olursa görəsən ki onun ədinə mutabiq əsmaullahdan biri ya iki kaça yetərsə bir-birini zəmm edəsən təharət ilə sabahda və axşamda xəlvət zəadə məşğul olasan hər nə məqsudun ke var isə hasil ola. Amma hər bar istınaf edəsən əvvəl üç kərə salavat verəsən ke və üç kərə fatihə oxuyasan ke yüz kərə padişahım deyəsən ke amma hər bu nüsxə vusul ola amma niyyətim budurke kimsənin həlakına məşğul olmayalar. Və həm naəhil olana göstərməyələr və vermiyələr saqınalar əl-aman." Əsər 120 vərəqli məcmuənin 104b-106b vərəqlərini əhatə edir. Əlyazmanın cildi sonradan müasir üsulla zoğalı rəngli dəri əvəzi ilə bərpa olunmuşdur. Cildin hər iki tərəfinə bir böyük və iki balaca basma medalyon vurulmuşdur. Abidə Şərq üsulu ilə səhifələnib və ölçüsü 16x21,5 sm-dir.

## Nəticə

*Beləliklə, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunan ərəbdilli əlyazmalar içərisində Allahın gözəl adlarına aid əsərlər üstünlük təşkil edir. Əksər əlyazma nüsxələrinin adı və müəllifi məlum olmasa belə bu əsərlər Allahın gözəl adları ilə zikr və dua edilməsindən bəhs edir. Allahın gözəl adlarına böyük rəğbətlə müraciət olunaraq qələmə alınan dəyərli əsərlər, İslam elmi ədəbiyyatını daha da zənginləşdirmişdi. Əsmaul-husna İslam dininin çoxşaxəli mövzularından biri olaraq Qurani-kərim və hədislərlə yanaşı qədim mənbələr əsasında araşdırılması, yeni tədqiqat işlərinin aparılmasına və bu sahədə elmi yeniliklərin aşkarlanmasına səbəb ola bilər.*

## Ədəbiyyat siyahısı:

1. Topaloğlu, B. Allah. Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / İstanbul: Türkiye Diyanet Vakfı yayınları, - c. 2. – 1989. - s. 471-498.
2. Qədim Misir Tanrılarının siyahısı. [Elektron resurs] / 14 Noyabr, 2020. URL: https://az.wikipedia.org/wiki/Qədim_Misir_tanrılarının_siyahısı

3. Ermiş C. 12 Olimpos Tanrısı: [Elektron resurs] / - Ağustos 19, 2019. URL: https://caremarselo.medium.com/12-olimpos-tanrı.

4. Tanrı'nın farklı isimleri nelerdir ve ne anlama gelirler? https://www.gotquestions.org/Turkce/Tanrinin-isimleri.html

5. Cilacı, O. Dua. Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / İstanbul: Türkiye Diyanet Vakfı yayınları, - c. 9. – 1994. - s. 529-530.

6. Parladır, S. Dua. Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / İstanbul: Türkiye Diyanet Vakfı yayınları, - c. 9. – 1994. - s. 530-535.

7. Sayın, E. Tasavvufi aşkla Esmaül-hüsna / E. Sayın. – Bursa: Emin yayınları, - 2016. – 158 s.

8. Uludağ, S. Buni, Ahmed b. Ali. Türkiye Diyanet Vakfı, İslam Ansiklopedisi: [44 ciltte] / İstanbul: Türkiye Diyanet Vakfı yayınları, - c. 6. – 1992. - s. 416-417.

9. Əlyazmalar İnstitutu. D-933, 176 v. البونی ا، ع. شمس المعارف / ا.ع. البونی .

10. Əlyazmalar İnstitutu. B-4748, v.54a-54b هذه الاسماء العظيم

11. Əlyazmalar İnstitutu. B-4748, v. 77a-78a. دعاء الاسماء الحسنی

12. Əlyazmalar İnstitutu. B-2816, v.73a-76b. دعاء الاسماالله است.

13. Əlyazmalar İnstitutu. B-3940, v. 3a-6b. دعاء الاسماالله است.

14. چلبی ك، كشف الظنون: :[جلد٢] / ك. .- استنبول: دار سعدة، ج.٢. - ١٩٤٣. ٢٠٥٥ص .

15. Şərifli, K. Əbdülqəni Əfəndi Nuxəvi Xalisəqarızadənin kitabxanasının kataloqu / K.Şərifli. – Bakı: Nurlan, -2009. – 425 s.

16. Əlyazmalar İnstitutu. A-828, v.29a-33b..دعاء

17. Каталог арабских рукописей. НАНА Институт Рукописей имени Мухаммеда Физули: / [в 4 томах] – Баку: Издательство Елм, т. 4. - 2019. - 487 с.

18. Əlyazmalar İnstitutu B-4944, v. 104b-106b فصل في اسماء الحسنی و عدد حرفها

**Yegana Rahnulla**

**Beautiful names of Allah in remembrance and prayer**
**(on the basis of Azerbaijani manuscripts)**

"Asmaul-husna" is a religious term expressed 99 of the most beautiful names belonged to Allah taken from different ayahs and hadiths of Quran. In the religious literary sources there are different notes related to Allah 99 names entered into "Asmaul-husna". In the Institute of Manuscripts named after M.Fuzuli of ANAS are preserved the manuscript copies of the works on different fields of theological sciences written by well-known Islamic scholars and thinkers. "Asmaul-husna" – dealt with the nice names of Allah takes a particular place among the works on theology.

***Key words:*** *Islam, Asma al-husna (beautiful names of Allah),* remembrance, prayer, *Azerbaijani manuscripts*

İlahiyyat üzrə fəlsəfə doktoru, dosent
**Nailə Süleymanova** tərəfindən çapa tövsiyə olunmuşdur.